Yazan
20.11.13 19:14 -



Məlum olduğu kimi, noyabr ayının 28-29-da Litvanın Vilnüs şəhərində Avropa İttifaqının “Şərq tərəfdaşlıgı” Sammiti keçiriləcək.

Sammitdə Azərbaycan üçün olduqca əhəmiyyətli məsələlərin müzakirəsi gözlənilir.

Belə ki, tərəflər, bəzi sahələr üzrə strateji əməkdaşlığa dair saziş, "mobility partnership" (Avropa İttifaqının əmək miqrasiyası siyasətinə dair xüsusi əməkdaşlıq forması), Azərbaycanın Avropa İttifaqının proqramlarında iştirakının genişləndirilməsi haqqında protokol və s. sənədləri imzalamağa hazırlaşırlar.

“Azərbaycan Miqrasiya Mərkəzi” İctimai Birliyi bəyan edir ki, bu sammit Azərbaycan üçün bir çox problemlərin həllində başlanğıc ola bilər. Belə ki, bu Sammitdə “Şərq tərəfdaşlığı” proqramı çərçivəsində Avropa İttifaqı 6 keçmiş Sovet Respublikası – Ukrayna, Belarus, Moldova, Azərbaycan, Ermənistan və Gürcüstan ilə demokratiya, qanunun aliliyi, insan hüquq və azadlıqlarına əsaslanan yeni münasibətlər qurmağa israrlıdır.

Vilnüsdə müzakirə olunacaq əsas məsələlərdən biri də Avropa İttifaqı ilə Azərbaycan arasında viza rejiminin sadələşdirilməsi ilə bağlı sazişin imzalanmasıdır. Saziş imzalanacağı halda Avropa İttifaqına gedən Azərbaycan vətəndaşlarına verilən vizanın qiyməti 30 manata endiriləcək, Avropa İttifaqına üzv ölkələrə vizaların vahid qaydada verilməsi (Avropa İttifaqının Viza Məcəlləsinə uyğun olaraq) tətbiq olunacaq ki, bu da mövcud viza rejiminin xeyli sadələşdirilməsi ilə nəticələnəcək.